# Sumqayıt Tibb Kollecində qəhrəman şəhidlərin xatirəsi ehtiramla anılıb



***Ayyarımlıq Vətən müharibəsinin başlanmasının birinci ildönümünə və şəhidlərin əziz xatirəsinə həsr olunmuş kütləvi anım mərasimlərindən iki gün sonra – yeni tədris ili başlanan gün Əziz Əliyev adına Sumqayıt Tibb Kollecində daha bir yaddaqalan tədbir keçirilib. Burada Vətən müharibəsi qəhrəmanları Sübhan Cəbrayılov və Mehrab Niftəliyevə həsr olunmuş "Şəhidlər unudulmur" adlı xatirə lövhəsinin açılış mərasimi ilk dərs kimi tələbələrə unudulmaz təsir bağışlayıb.***

...Lövhədən boylanan iki igid vətən oğlu son libastək büründükləri bayraqların fonunda, bir mahnıda deyildiyi kimi, can, qan və şan qardaşları kimi daha əzəmətli görünürdülər. Lövhənin qarşısındakı masalar burada sərgilənən orden və medallara, şəhidlərin təltif olunduqları xidməti mükafatlara az qala darlıq edirdi. Xüsusi təyinatlı taborda kəşfiyyatçı olmuş, 44 günlük zəfər yürüşündə düşmənlərə qan uddurmuş baş gizir Mehrab Niftəliyev noyabrın 8-də Şuşa şəhərində şəhadətə qovuşub. Şanlı ömür yolu keçmiş kəşfiyyatçı baş gizir olan idmançı Sübhan Cəbrayılov da döyüşlərdə böyük hünər göstərib və oktyabrın 19-da Qubadlını azad edərkən həlak olub. Hər iki peşəkar hərbçi ölümündən sonra Vətən Müharibəsi Qəhrəmanı adına layiq görülüb. Sumqayıtdakı Şəhidlər xiyabanında uyuyan igidlərin məzarlarının üstündən tər çiçəklər əskik olmur.

Xatirə lövhəsinin açılış mərasimində çıxış edən şəhər icra hakimiyyəti başçısının birinci müavini Teymur Səmədov bildirib ki, 2020-ci il sentyabrın 27-də Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin əmri ilə rəşadətli Milli Ordumuz əks-hucum əməliyyatlarına başlayaraq, qısa müddətdə ərazi bütövlüyümüzün bərpasına nail olub. İşğalçı Ermənistan ordusuna qarşı döyüşlərə atılan sumqayıtlı gənclərdən 105 nəfəri qəhrəmancasına həlak olub, bir çoxları yaralanıb, ancaq heç kimin qələbə əzmi tükənməyib. Zəfər yürüşündə fərqləndiklərinə görə Vətən müharibəsi Qəhrəmanı adını almış hünərvər gənclərdən yeddisi Sumqayıt şəhərinin yetirməsidir. Mehrabla Sübhanın da adları o sıradadır. Qəhrəmanların şücaəti hər bir gənc üçün misilsiz vətənsevərlik nümunəsidir. Torpaqlarımızın azadlığı uğrunda həlak olmuş bütün soydaşlarımız kimi, onların da xatirəsi daim uca tutulur, ailələrinə hərtərəfli qayğı göstərilir. Eyni zamanda, gənclərin and yeri olan Sumqayıt Şəhidlər xiyabanı hazırda başdan-başa yenidən qurulur. Şanlı vətən fədailəri bundan sonra da həmişə ehtiramla yad ediləcəklər.

Kollecin direktoru, tibb elmləri doktoru, Əməkdar həkim Rəfayıl Eyvazov Qarabağ torpaqlarını istila etmiş mənfur düşmənə qarşı mübarizədə həlak olan qəhrəmanlarımızla hər kəsin fəxr etdiyini söyləyərək vurğulayıb ki, onlara sayğı, Vətənə əmanət qoyub getdikləri övladlarına isə qayğı göstərmək müqəddəs borcumuzdur. Fərəhlə qeyd edim ki, digər bir Vətən Müharibəsi Qəhrəmanı – hazırda Qarabağda xidmət edən mayor Saleh Həsənovun ömür-gün dostu Sevinc Həsənova bizim kollecin müəllimidir. Gələcəkdə tibb bacıları olacaq bugünkü tələbə qızlarımızın isə Vətən müharibəsinin yeganə qadın şəhidi, Azərbaycan Ordusunun çavuşu olan hərbi feldşer Arəstə Baxışova kimi vətənpərvər olacaqlarına inanıram.

Qəhrəmanların həyat yoldaşları Vüsalə Niftəliyeva və Sevda Cəbrayılova Vətən uğrunda döyüşlərdə həlak olan əzizləri ilə və bütün digər şəhidlərlə hədsiz qurur duyduqlarını, fəxr etdiklərini söyləyiblər. Ölkə Prezidenti cənab İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıq hissləri ifadə edilib.

**Əli NƏCƏFXANLI,**
**"Xalq qəzeti"nin bölgə müxbiri**